*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 14–18
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 14–18
DOI: https://doi.org/10.36719/2706-6185/60/14-18

# İnsanın sosiallaşmasına təsir edən faktorların müsbət və mənfi tərəfləri

**Cəmilə Hüseynova**

***Xülasə.*** *Məqalədə insanın sosiallaşmasına təsir edən əsas faktorların həm müsbət, həm də mənfi tərəfləri elmi baxımdan təhlil olunur. Sosiallaşma fərdin cəmiyyətə inteqrasiyasını təmin edən çoxşaxəli və dinamik proses olub, onun sosial norma və dəyərləri mənimsəməsi, sosial rolları icra etməsi və şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Bu proses bioloji meyillərlə yanaşı, əsasən sosial mühitin təsiri altında inkişaf edir. Sosiallaşmaya təsir edən başlıca faktorlar arasında ailə, təhsil müəssisələri, yaşıd qrupları (dostlar), kütləvi informasiya vasitələri və ümumi sosial mühit xüsusi yer tutur. Ailə ilkin sosiallaşma agenti kimi fərdin əsas davranış modellərini, emosional reaksiyalarını və dəyərlər sistemini formalaşdırır. Məktəb isə bilik və bacarıqların ötürülməsi ilə yanaşı, sosial intizam, məsuliyyət və kollektiv davranış qaydalarının mənimsənilməsində mühüm rol oynayır. Yaşıd qrupları fərdin sosial identikliyinin və ünsiyyət bacarıqlarının inkişafına təsir göstərir, media isə müasir dövrdə informasiya və davranış modellərinin əsas mənbələrindən biri kimi çıxış edir. Bu faktorların təsiri ikitərəfli xarakter daşıyır. Müsbət təsirlər sırasında sosial bacarıqların inkişafı, empatiyanın formalaşması, əməkdaşlıq və ünsiyyət qabiliyyətlərinin güclənməsi qeyd oluna bilər. Bununla yanaşı, qeyri-sağlam sosial mühit, yanlış tərbiyə üsulları və neqativ informasiya axını aqressiv davranışların yaranmasına, sosial təcridə, deviativ davranışlara və müxtəlif psixoloji problemlərə səbəb ola bilər.*

***Açar sözlər:*** *insan, cəmiyyət, sosiallaşma, tərbiyə, mühit*

---

Bakı Dövlət Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: huseyinovacemile@gmail.com
Daxil oldu: 21 Dekabr 2025; Qəbul edildi: 15 Fevral 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Positive and Negative Aspects of Factors Affecting Human Socialization

**Jamila Huseynova**

***Abstract.*** *The article analyzes the main factors influencing human socialization from a scientific perspective, examining both their positive and negative aspects. Socialization is a multifaceted and dynamic process that ensures an individual's integration into society, playing a decisive role in the acquisition of social norms and values, the performance of social roles, and the formation of personality.*

*Alongside biological predispositions, this process develops primarily under the influence of the social environment. The key factors affecting socialization include family, educational institutions, peer groups (friends), mass media, and the broader social environment. The family, as the primary agent of socialization, shapes an individual's basic behavioral patterns, emotional responses, and value system. School, in addition to transmitting knowledge and skills, plays an important role in instilling social discipline, responsibility, and norms of collective behavior. Peer groups influence the development of social identity and communication skills, while media, in the modern era, serves as a major source of information and behavioral models. The impact of these factors is dual in nature. Positive effects include the development of social skills, the formation of empathy, and the strengthening of cooperation and communication abilities. However, an unhealthy social environment, improper upbringing methods, and exposure to negative information can lead to aggressive behavior, social isolation, deviant behavior, and various psychological problems.*

***Keywords:*** *human, society, socialization, upbringing, environment*

---

Baku State University, PhD in Pedagogy, Baku, Azerbaijan
E-mail: huseyinovacemile@gmail.com
Received: 21 December 2025; Accepted: 15 February 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İnsan bioloji varlıq olmaqla yanaşı, eyni zamanda sosial varlıqdır. Onun cəmiyyətə uyğunlaşması, davranış normalarını mənimsəməsi və şəxsiyyət kimi formalaşması sosiallaşma prosesi vasitəsilə baş verir. Sosiallaşma fərdin cəmiyyətin dəyərlərini, qaydalarını, ənənələrini və sosial rollarını öyrənərək gündəlik həyatında tətbiq etməsi deməkdir. Bu proses insan həyatının bütün mərhələlərini əhatə edir və onun sosial münasibətlər sistemində yerini müəyyənləşdirir (Mollayeva 2022).

Müasir dövrdə sosiallaşma yalnız ailə və məktəb çərçivəsində deyil, həm də media, texnologiya və qlobal mədəni təsirlər altında formalaşır. Bu baxımdan sosiallaşmaya təsir edən faktorların öyrənilməsi və onların müsbət və mənfi tərəflərinin təhlili xüsusi əhəmiyyət kəsb edir.

## Tədqiqat

Sosiallaşmaya müsbət təsir edən əsas amillər ailə tərbiyəsinin sağlamlığı, valideyn-övlad münasibətlərində qarşılıqlı hörmət, məktəbdə tərbiyəvi mühitin düzgün qurulması və sosial dəyərlərin şəxsiyyətin mənəvi dünyasında möhkəmlənməsidir. Belə şəraitdə insan empatiya, məsuliyyət, əməksevərlik və sosial ədalət kimi keyfiyyətlər qazanır. Lakin sosiallaşmanın mənfi tərəfləri də mövcuddur. Ailədəki laqeydlik, aqressiya, neqativ qrup təsiri, kütləvi informasiya vasitələrindəki zorakılıq və mənfi nümunələr, sosial bərabərsizlik və psixoloji təzyiq kimi amillər insanın şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir.

İnsan dünyaya gəldiyi andan ömrü boyu sosiallaşma prosesindən keçir. Sosiallaşma insanın cəmiyyətə uyğunlaşması, sosial norma və dəyərləri mənimsəməsi, davranış modelləri formalaşdırması deməkdir. Bu proses insanın şəxsiyyət kimi inkişafında, formalaşmasında, davranışlarının, dəyərlərinin və dünyagörüşünün yaranmasında həlledici rol oynayır (Hüseynov, 2019).

Sosiallaşmaya təsir edən faktorların müxtəlifliyi insanın xarakterinə və davranışına fərqli yönlər verir. Hər bir faktorun həm müsbət, həm də mənfi tərəfləri mövcuddur. Aşağıda sosiallaşmaya təsir göstərən faktorların müsbət və mənfi tərəflərini araşdıraq (Məmmədov, 2019).

**1. Ailə**

Ailə sosiallaşmanın ilkin və ən vacib mühitidir. Uşaq ilk sosial davranışlarını məhz ailədən alır və burada o, davranış qaydalarını, hər kəsin sosial rolunu və emosional münasibətləri öyrənir. Ailənin müsbət təsiri uşağın özünə güvənini artırır, psixoloji sağlamlığını möhkəmləndirir və cəmiyyətə uyğunlaşmasını asanlaşdırır. Lakin ailədə zorakılıq, münaqişə, laqeydlik və ya yanlış tərbiyə üsulları olarsa, bu sosiallaşmanı mənfi istiqamətə yönəldə bilər. Belə uşaqlarda aqressiya, qorxu, ünsiyyətdən qaçma və sosial çətinliklər formalaşır (Həsənova, 2020).

**Müsbət təsirlər:**
- Sevgi və təhlükəsizlik hissi formalaşdırır;
- Əxlaqi dəyərlərin əsasını qoyur;
- Sosial davranış qaydalarını öyrədir.

**Mənfi təsirlər:**
- Avtoritar və ya laqeyd tərbiyə fərdi passivləşdirə bilər;
- Zorakılıq və aqressiya psixoloji travmalar yaradır;
- Mənfi davranış modelləri uşağa ötürülür.

**2. Məktəb və təhsil mühiti**

Məktəb insanın sosiallaşmasında növbəti mühüm təsir məkanıdır. Uşaq məktəbdə kollektivdə yaşamağı, qaydalara əməl etməyi, əməkdaşlıq etməyi öyrənir. Müəllim nümunəvi şəxs kimi uşağın davranışına və dünyagörüşünə təsir edir. Təhsil və məktəb mühiti uşağın intellektual və sosial inkişafını gücləndirir. Lakin məktəbdə qruplaşmalar, zorakılıq, müəllim-şagird münasibətlərinin zəif olması uşağın cəmiyyətdən uzaq düşməsinə səbəb ola bilər.

Məktəb fərdin sosial bacarıqlarının inkişaf etdiyi ikinci əsas mühitdir.

**Müsbət təsirlər:**
- Ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir;
- Məsuliyyət və intizam yaradır;
- Analitik düşüncəni gücləndirir.

**Mənfi təsirlər:**
- Rəqabət və təzyiq stress yarada bilər;
- Mobbinq və zorakılıq sosial travmalara səbəb olur;
- Ədalətsiz münasibət inamsızlıq yaradır.

**3. Yoldaş qrupu (həmyaşıdlar)**

Həmyaşıdlar fərdin sosial identikliyinin formalaşmasında mühüm rol oynayır. Eyni zamanda yaşıdlar qrupu da sosiallaşmanın vacib faktorudur. Uşaq dostları ilə ünsiyyətdə özünü ifadə edir, münaqişə həllini və sosial rolları mənimsəyir. Müsbət dost çevrəsi şəxsin pozitiv şəxsiyyət keyfiyyətlərini inkişaf etdirir. Mənfi yaşıd təsiri isə risk davranışlarına – siqaret, alkoqol, narkotik maddələr, cinayətkarlıq və aqressivliyə səbəb ola bilər.

**Müsbət təsirlər:**
- Sosial qəbul və aidiyyət hissi yaradır;
- Empatiya və əməkdaşlıq inkişaf edir;
- Müstəqil qərarvermə qabiliyyəti artır.

**Mənfi təsirlər:**
- Qrup təzyiqi riskli davranışlara səbəb ola bilər;
- Pis vərdişlərə meyillilik yaradır;
- Mənəvi dəyərlərin zəifləməsinə gətirib çıxarır.

**4. Kütləvi informasiya vasitələri və sosial media**
Kütləvi informasiya vasitələri və sosial şəbəkələr müasir dövrdə sosiallaşmada güclü rola malikdir. Media vasitəsilə insanlar məlumat əldə edir, dünyagörüş formalaşdırır, müxtəlif mədəni dəyərlərlə tanış olur. Lakin eyni zamanda yanlış informasiyalar, zərərli kontent və vaxtın idarəolunmaması psixoloji asılılıq, sosial təcrid və davranış pozuntularına gətirə bilər. Sosial şəbəkədə qəbul olunma ehtiyacı gənclərdə özünəinamsızlıq və depressiv hallar yaradıb.

**Müsbət təsirlər:**
- İnformasiya əldə etmə imkanlarını genişləndirir;
- Qlobal mədəniyyətlə tanışlıq yaradır;
- Yaradıcılığı və özünüifadəni artırır.

**Mənfi təsirlər:**
- Asılılıq və vaxt itkisi yaradır;
- Reallıqdan uzaq ideal obrazlar özünəinamsızlıq yaradır;
- Kiberzorakılıq və sosial müqayisə psixoloji problemlərə səbəb olur.

**5. Mədəni və sosial mühit**
Cəmiyyətin dəyərlər sistemi, iqtisadi və mədəni mühiti, sosial quruluşu da sosiallaşmaya təsir edir. Mədəniyyət ənənələr, davranış normaları və dəyərlər sistemini formalaşdırır. Müsbət mədəni mühit tolerantlıq, birlik və milli kimlik hissini gücləndirir. Əksinə, sosial bərabərsizlik və iqtisadi problemlər insanlarda etibarsızlıq, aqressiya və sosial mühitdən uzaqlaşma yarada bilər (Babayeva, s. 2020).

**Müsbət təsirlər:**
- Ənənə və dəyərlər sosial davranışı tənzimləyir;
- Tolerantlıq və birlik hissini gücləndirir.

**Mənfi təsirlər:**
- Stereotiplər fərdi azadlığı məhdudlaşdıra bilər;
- Sosial təzyiq və ayrı-seçkilik yaradır.

**6. Sosial institutlar**
Dövlət, hüquq sistemi və ictimai təşkilatlar sosiallaşmada mühüm rol oynayır. Sosial institutlar dedikdə, bura aiddir: dövlət qurumları, hüquq-mühafizə orqanları, dini təşkilatlar, ictimai birliklər və s. Bu institutlar insanların hüquqlarını qoruyur və cəmiyyətə inteqrasiyasını gücləndirir. Lakin sistemin düzgün işləmədiyi hallarda sosial ədalətsizlik və inamsızlıq yaranaraq insanın cəmiyyətə bağlılığı zədələnə bilər.

**Müsbət təsirlər:**
- Sosial ədaləti və hüquqları qoruyur;
- Cəmiyyətə inteqrasiyanı gücləndirir.

**Mənfi təsirlər:**
- Ədalətsizlik və korrupsiya inamsızlıq yaradır;
- Sosial sistemin zəifliyi fərdin inkişafına mane olur.

Bütün göstərilən faktorlar insanın şəxsiyyət olaraq formalaşmasında əhəmiyyət daşıyır. Hər bir faktor insanı sosial həyatda gücləndirə və ya əksinə, onun uyğunlaşmasını çətinləşdirə bilər. Bu səbəbdən

sosiallaşma prosesinə yönəlmiş pedaqoji və sosial iş zamanı risklər nəzərə alınmalı, insanın müsbət sosial təcrübəsi artırılmalıdır. Sağlam sosial mühit yaradıldıqda insanın cəmiyyətə uyğunlaşması və uğurlu inkişafı daha asan baş verir.

## Nəticə

İnsanın sosiallaşmasına təsir edən faktorlar həm müsbət, həm də mənfi istiqamətdə təsir göstərə bilər və bu təsirlər fərdin inkişaf trayektoriyasını birbaşa müəyyənləşdirir. Müsbət sosiallaşma faktorları uşağın empatiya, əməkdaşlıq, məsuliyyət və ünsiyyət bacarıqlarını gücləndirərək onun cəmiyyətə uyğun, aktiv və sosial cəhətdən sağlam fərd kimi formalaşmasına şərait yaradır. Mənfi təsirlər isə sosial bacarıqların zəifləməsinə, davranış pozuntularına, aqressiv meyillərin artmasına və müxtəlif psixoloji problemlərin yaranmasına səbəb ola bilər.

Sosiallaşmanın uğuru yalnız uşağın fərdi xüsusiyyətlərindən deyil, həm də onu əhatə edən sosial mühitin – ailə, məktəb, yaşıd qrupu və medianın – keyfiyyətindən və qarşılıqlı təsirindən asılıdır. Bu mühitin sağlam, dəstəkləyici və inkişafyönümlü olması sosiallaşma prosesinin səmərəliliyini artırır. Xüsusilə erkən yaş dövründə əldə olunan sosial təcrübə və bacarıqlar fərdin gələcək həyatında mühüm rol oynayır, onun sosial adaptasiyasını və cəmiyyətə inteqrasiyasını asanlaşdırır.

Bundan əlavə, sosiallaşma prosesinin məqsədyönlü şəkildə istiqamətləndirilməsi, valideyn və müəllimlərin maarifləndirilməsi, eləcə də müasir medianın təsirinin düzgün idarə olunması vacib amillər sırasındadır. Bu yanaşma uşaqların sağlam psixoloji mühitdə yetişməsini təmin etməklə yanaşı, onların gələcəkdə məsuliyyətli, sosial cəhətdən aktiv və cəmiyyət üçün faydalı fərdlər kimi formalaşmasına zəmin yaradır.

## Ədəbiyyat

1. Babayeva, S. (2020). *İnsanın sosial inkişafında mühitin rolu*. Elm və Təhsil.
2. Bandura, A. (1997). *Sosial öyrənmə nəzəriyyəsi*.
3. Əliyev, R. (2018). *Şəxsiyyətin inkişafında sosial-mədəni mühitin rolu*. Təhsil Nəşriyyatı.
4. Əmrahlı, L. (2007). *Şəxsiyyət və cəmiyyət*. MBM.
5. Həsənova, S. (2020). *Uşaq və yeniyetmələrin şəxsiyyət inkişafında ailə faktorunun əhəmiyyəti*. Maarif Nəşriyyatı.
6. Hüseynov, R. (2019). *Sosiallaşma prosesinin psixoloji əsasları*. Təhsil.
7. Məmmədov, T. (2019). *Tərbiyə və şəxsiyyətin formalaşması: Nəzəri və praktik yanaşmalar*. Elm və Təhsil.
8. Mollayeva, E. (2022). *Sosial pedaqogika*. Elm və Təhsil.
9. Musayeva, Ş. (2013). *Dəyərlər və vətəndaş cəmiyyəti: Bəzi etik aspektlərin təhlili*. Elm və Təhsil.
10. Quliyev, A. (2018). *Sosial pedaqogika*. Elm.
11. Quliyev, S., & Quliyev, M. (2013). *Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri*. ADPU-nun nəşriyyatı.
12. Viqotski, L. (2005). *Şəxsiyyətin sosial inkişafı nəzəriyyəsi*.